**MƏTNİN PROBLEM VƏ PROBLEMATİKASI**

Mətnin mövzu və tematikası olduğu kimi, problem və problematikası da olur. Yəni mətndə eyni bir predmetlə bağlı bir neçə mövzudan bəhs olunduğu kimi, bir mövzu ilə bağlı müxtəlif problemlər də qoyulur. Mövzuların cəmi tematika, problemlərin cəmi problematika adlanır. İkincidərəcəli elementlər inkişafetdirici, tamamlayıcı xarakter daşıyaraq əsas mövzuya, əsas problemə tabe olur və ya bir probem digər müxtəlif problemlərin əsası olur.

"Mətnin problemi nədir?" sualına müxtəlif cavablarla qarşılaşa bilərsiniz:

Mətnin mövzusu onun problemidir.

Mətndə müəllif məqsədi: mətnin problemi məhz budur və s.

Bu təriflərdən heç biri anlayışın dəqiq izahı deyil. Mətnin problemini mövzu və müəllif məqsədi ilə eyniləşdirmək anlayışı təhrif etməkdir. Mətnin problematikası mətnşünaslıqda ən az öyrənilmiş mövzu olsa da, digər anlayışların dəqiq öyrənilməsi bu terminin də üzərinə işıq salır. Mətnin predmeti, mövzusu, ideyası, müəllif məqsədi terminlərinin öncəki məqalələrdə izahı ilə tanış olmusunuz. Bu anlayışları qarşılaşdırdıqda mətnin müstəqil bir elementi olan problemin də mətndə funksiyası asanlıqla fərqləndirilir.

*Mətnin problemi* müəllifin mətni yazmaqla qarşıya qoyduğu məsələdir. Həmin məsələ ilə bağlı müəllifin nəzər nöqtəsi, mətndə suala verdiyi cavab onun ideyasıdır.

Problem: Müəllif mətn vasitəsilə hansı məsələni həll etmək istəyir?

İdeya: Müəllif nə qənaətə gəlir?

Başqa sözlə, mətnin problemi qarşıya qoyulan sualdır, bu suala verilən cavab isə mətnin ideyasıdır.

Problem: Müəllif qarşıya hansı sualı qoymuşdur?

İdeya: Müəllifin mövqeyi, bu suala cavabı nədir?

Problem və mövzu cümlələrini qarışdırmaq olmaz.

Ailə səadəti, dostluq məsələsi, təhsil problemi kimi ifadələr problemi deyil, mövzu və ya predmeti əks etdirir. Çünki burada hər hansı fəlsəfi, ictimai suala və qarşıya qoyulmuş konkret bir məsələyə işarə yoxdur.

Predmet*: Ailə*

Mövzu: *Ailə səadəti*

Problem: *Ailə səadətində uşaqların rolu*

İdeya: *Tərbiyəyə yatımlı uşaqlar ailə səadətinin əsasıdır.*

Nümunədən göründüyü kimi, problem "rol" kəlməsi ilə məsələ şəklində qoyulmuşdur.

Problemi mətnin digər elementlərindən fərqləndirmək üçün onun göstəricilərinə diqqət etmək lazımdır. Mətndə problematik cümlələr **müəyyən əlamətlərə** malikdir:

Hər hansı fəlsəfi və ya ictimai suala müraciət edilir.

*Səyahətin insan həyatındakı rolu;*

*Səyahətin insan həyatında* necə *rolu* var?;

Mənfi göstəricilər daşıyır (konfliktli, neqativ vəziyyətlərdən danışır):

*Heyvanlara qarşı neqativ davranışlar.*

Hər hansı bir anlayışın izahı tələb olunur:

*Həqiqi dostluq nədir?*

Motiv açıq ifadə olunur:

*Müharibədə mənəvi gücün əks etdirilməsinin əhəmiyyəti.*

Problemi əks etdirən açar sözlərin müxtəlifliyini bir daha nəzərdən keçirək:

Sevginin insana təsiri

Vətənin gözəlliyinin tərənnümü

Şairin zəmanədən şikayəti

İnsanı nə xoşbəxt edə bilər?

Yalnızlığın səbəbləri

Mütaliənin əhəmiyyəti

Ailə institutunun tənəzzülü və s.

Müəyyən ictimai, fəlsəfi, siyasi mövzuda müəllif mövqeyini ifadə edən mətnlərdə problem cümləsini formalaşdırmaq üçün "problem" sözündən istifadə etmək uyğun deyil. Məsələn:

*"Essenin problemi müasir dövrdə ictimai nəqliyyatdan istifadənin çətinlikləridir".* ✗

*"Müasir dövrdə ictimai nəqliyyatdan istifadənin çətinlikləri problemini qaldıracağıq".* ✗

Bu cümlələrdə "problem" sözündən sui-istifadə olunmuşdur. Nümunəvi cümləyə baxaq:

*"Müasir dövrdə ictimai nəqliyyatdan istifadənin müəyyən çətinlikləri var".* ✓

Nümunələr:

*Ailə problemlərinin cəmiyyətin formalaşmasına böyük təsiri var.*

*Şagirdlərin söz bazasının zənginləşməsində klassik ədəbiyyatı oxumağın əhəmiyyəti böyükdür.*

*Analitik mətnlər* də var ki, oxunmuş, dinlənilmiş mətnin təhlilinə həsr olunur. Belə mətnlərdə problem cümləsini formalaşdırarkən yerinə görə "problem" sözündən də istifadə etmək olar.

**<u>Qeyd:</u>** Bu halda təhlilə cəlb edilmiş mətnin janrını bildirən terminlərdən – “hekayə”, “təmsil”, “esse” sözlərindən deyil, “mətn” sözündən istifadə etmək uyğundur. Əgər burada mətnin janrını dəqiq müəyyənləşdirmək bir tələb və ya məqsəddirsə, bu qeyd nəzərə alınmaya bilər.

Mətnin təhlilinə həsr edilmiş yazılarda problem-cümlə nümunələri:

*Müəllif “Azərbaycan” şeirində vətənini bütün diqqətəşayan cəhətləri ilə <u>tərənnüm edir.</u>*

*Mətndə ana dilinə laqeyd münasibət <u>məsələsi qaldırılmışdır.</u>*

*İnternet gənclərə necə təsir göstərir? Esse mətni bu mürəkkəb <u>problemə həsr olunmuşdur.</u>*

**Mətnin problematik cümləsinin formalaşdırılması üsulları:**

| Üsul / İzah | **Nəqli cümlədə problemin qoyulması** | **Sual cümləsində problemin qoyulması** |
|---|---|---|
| Təfsir | Problemi *qoyurlar* və ya *qaldırırlar.* “Müəllif problemə toxunmuşdur” və ya “yanaşmışdır” ifadələri uyğun deyil.<br>Əsərin təhlili zamanı mətnin problemini açıq ifadə etmək üçün “məsələ”, “problem” sözlərindən istifadə olunur.<br>Problematik cümləni yazmaq üçün problemi əks etdirən açar sözlərdən (təsir, əhəmiyyət, təzahür və s.) istifadə edilə bilər. | Mətndə “məsələ”, “problem” kimi ifadələrdən istifadə edilməyə bilər. Bu halda sual cümləsindən istifadə olunur.<br>Sual mətnin əsas fikrinin açılmasına kömək etməlidir: bədii mətnin təhlilində qəhrəmanın və ya təhkiyəçinin müzakirəsinə deyil, ümumilikdə davranışların, fikirlərin, əsas məqamların təhlilinə istiqamətləndirməlidir. |
| Müəllifin qarşıya qoyduğu problem: | Müasir cəmiyyətdə yaşlı insanlara qarşı etinasızlığın getdikcə artması müşahidə edilir.<br>Cəmiyyətin müasir problemlərindən biri də yaşlı insanlara qarşı laqeydliyin artmasıdır. | Yaşlı insanlara diqqət göstərməmək nəyə gətirib çıxara bilər? |
| Əsərin təhlili zamanı problemin müəyyənləşdirilməsi: | Müəllif öz əsərində yaşlı insanlara laqeydlik məsələsini qaldırmışdır.<br>Əsərdə yaşlı insanlara laqeydlik problemi qoyulmuşdur. | Müəllif yaşlı insanlara laqeydliyin fəsadlarını necə izah edir? |




Elmi əsərlərdə problem və ya problematika mətnin giriş hissəsində açıq ifadə edilir. Həcmindən asılı olaraq mətnin ayrı-ayrı hissələrində yeni problemlər qoyulur.

Elmi-kütləvi əsərlərdə mətnin tipindən asılı olaraq problem açıq ifadə oluna da bilər, belə bir cümləyə yer verilməyə də bilər.

Publisistik əsərlərdə problematik cümlələrdən geniş istifadə olunur. Bu əsərlərdə də həcmindən asılı olaraq mətn boyunca yeni problemlər qoyula bilər. Publisistik əsərlərin kompozisiyası daha sərbəst olduğu üçün problematika da sabit struktura malik deyildir.

Bədii əsərlərdə problem:

1. *Epik əsərlərdə problem*

Klassik əsərlərdə əsərin problemi süjetin düyün nöqtəsində qoyulur. Epik əsərlərdə problem kompozisiyanın bir elementi olaraq "konflikt", "intriqa" adlanır. Ayrı-ayrı bölmə və fəsillərdən ibarət olan əsərlərdə hər bölmənin, fəslin öz konflikti olur.

Bədii əsərlərin kompozisiyası sərbəstdir. Kompozisiyanı nəzərə alaraq konflikti düyün nöqtəsində axtarmaq lazımdır.

2. *Dram əsərlərində problem*

Dram əsərlərində də problem epik əsərlərdə olduğu kimi, konflikt, intriqa olaraq üzə çıxır.

3. *Lirik əsərlərdə problem*

Lirik əsərlərdə problem mövzusu daha mürəkkəb xarakter daşıyır. Mövzunun işlənməsindən asılı olaraq lirik əsərlərdə problematika açıq şəkildə ifadəsini tapa da bilər, eyham vasitəsilə və ya ümumi məzmundan çıxış edərək müəyyənləşdirilə də bilər. Lirik

əsərlərdə problem tərənnüm, şikayət, tənqid, eyham, izhar (bəyan) şəklində özünü göstərir. Məsələn, Bəxtiyar Vahabzadənin "Qocalıq" şeirinin problemi onun ilk bəndində qoyulmuşdur:

Müddət bu, qismət bu, qədər budurmu,
Ömür başdan-başa qəm yoludurmu?
Təklik qorxusunu ürək duydumu,
Hazır ol, qapını döyür qocalıq.

Şair qocalıqdan və onun gətirdiyi sıxıntılardan şikayət edir.

Əhməd Cavadın "Göygöl" şeirinin problematikası ayrı-ayrı bəndlərdə eyhamlarda gizlidir. Alleqoriya ilə zəngin olan bu şeirin problematikası müstəqil Azərbaycanın xiffəti, cümhuriyyətin, vətəndən didərginlərin həsrətidir. "Göygöl" şeirinin hər bir bəndinin öz problemi var, əsas mövzular eyhamlarda gizli olduğu kimi, problemlər də yalnız dərin təhlillər nəticəsində – şifrələrin açılması ilə üzə çıxarılmışdır.

Akademik Rafael Hüseynov yazır: "...mərdümazarlar, şeytana papış tikənlər, xəbislər dərhal Ağamalıoğlunun gözünü açmağa, qulağını doldurmağa başlayırlar ki, siz səmimi adamsınız, xeyirxahsınız, ona görə də bu şeiri şirin bir mənzumə kimi oxuyursunuz...

Dolanır başına göydə bulutlar,
Öpər ayağından qurbanlar otlar,
Bəzənmiş eşqinlə çiçəklər, otlar
Ayrılıq könlünü qıralı, Göygöl!

Cümhuriyyət bayrağının rənglərini sadalayır burada!

Bulud nə rəngdir? – göy! Bu bir!

Qurbanlıq quzuların otlamasından dəm vurur guya. Həqiqətdə isə niyyəti ayrıdır. Qurbanlıq quzu kəsiləndə qanı axacaq – bu da sizinçün qırmızı rəng.

Çəmən-çayır, otlar da yaşıl. Bu da üç!

Göy, qırmızı, yaşıl. Nə alınır? Həmin o cümhuriyyətin tarixin arxivinə tolazlanmış bayrağı!"

Səməd Vurğunun "Azərbaycan" şeirinin əsas problemini isə vətənin tərənnümü kimi qeyd edə bilərik. Hər bəndin öz problemi var ki, bunlar da əsas problemin həllinə xidmət edir. Şairin "Şair, nə tez qocaldın sən" şeirinin problemi isə onun başlığına çıxarılmış və hər bəndinin təkririnə çevrilmişdir.

**Könül Aydın Nəhmətova**

ARTİ MDPİM-in Əlavə təhsilin məzmunu şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru

**İstifadə edilmiş ədəbiyyat:**

1. Есин А.Б. Принципы и приемы анализа литературного произведения. Москва, «Флинта». «Наука»,2000, 248 səh.
2. С.В.Драбкина, Д.И.Субботин. Сочинение: алгоритм написания, анализ типичных ошибок, примеры образцов работ учащихся. Москва, «Интиллигент-Центр».2016, стр. 128
3. Rafiq İsmayılov, Ülkər Nurullayeva, Şəhla Zahidova, İradə Bayramova, Aysel Xanaliyeva. Azərbaycan dili (tədris dili), 2-ci sinif, 1-ci hissə.
4. Rafael Hüseynov. Son atəşdən bir az öncə. https://rafaelhuseynov.com/az/content/48